# Azərbaycana ilk qızıl medalı atıcılar qazandırdı



IV İslam Həmrəyliyi Oyunlarında ilk medal dəsti Bakı Atıcılıq Mərkəzində öz sahibini tapıb. Bu idman növündə dünyanın ən böyük arenalarından olan Bakı Atıcılıq Mərkəzi İslamiadanın tarixinə düşüb. Burada həm "Bakı-2017"nin, həm də Azərbaycan millisinin ilk qızıl medalçısı müəyyənləşib.

Azərbaycan yığmasına ilk qızıl medalı idmançımız Ruslan Lunyov qazandırıb. Ruslan Lunyov kişilərin 25 metr məsafədən tapança ilə mərkəzə atəş açmaq yarışında 581 xal toplayıb. Bu mübarizədə gümüş medalı Türkiyə təmsilçisi Yusuf Dikec, bürünc medalı isə pakistanlı Axtar Məhəmməd Xəlil qazanıblar.

*Ardı 3-cü səh.*

# Azərbaycana ilk qızıl medalı atıcılar qazandırdı







*Əvvəli 1-ci səh.*

Mükafatlandırma mərasiminden sonra çempionluq sevincini bölüşən Ruslan Lunyov qeyd edib ki, qələbə hər bir idmançı üçün həmişə həyəcanvericidir: "IV İslam Həmrəyliyi Oyunlarında qalib gəldiyimə görə xoşbəxtəm. Eyni zamanda, fəxr edirəm ki, yığmamıza ilk ən yüksək əyarlı medalı qazandırdım. Bu həm də idmançı həyatının şərəfli və məsuliyyətli anıdır, çünki qələbə qazananda ölkənin himni səslənir. Şəxsən mənim üçün İslamiadanın çempionu olmaq sözlə ifadə edilməsi mümkün olmayan fərəh hissidir. Həmin anda fəxri kürsüdə dayanan idmançının nələr hiss etdiyini başa düşmək üçün bu zirvəyə çatmaq lazımdır".

Xatırladaq ki, Ruslan bu yarışda hazırkı dünya çempionu, türkiyəli güllə atıcısı Yusuf Dikeçə qalib gələrək adını tarixə yazdırıb. Rəqibləri ilə gərgin mübarizəsini də qiymətləndirən idmançımız qeyd edib ki, yarışda Yusuf Dikeçdən xeyli geri qalsa da, son anda bütün qüvvəsini toplayaraq hədəfin mərkəzini düzgün nişan almaqla üstünlüyə sahib olub.

Mayın 17-dək davam edəcək yarışların ilk günündə kişilər və qadınlar arasında 10 metrdən pnevmatik tüfənglə atəş, kişilərin və qadınların səngər stendi, 25 metrdən tapança ilə atəşaçma yarışları keçirilib.

Ölkəmizi kişilər arasında 10 metrdən pnevmatik tüfənglə atəş açmaq yarışında Əli Məcidli, 25 metrdən tapançadan mərkəzə atış yarışlarında Ruslan Lunyov, qadınlar arasında səngər stendi yarışlarında Şəfəq Əmrahova və Aydan Camalova, 10 metrdən pnevmatik tüfənglə atəşaçma üzrə təsnifat mərhələsində isə Jalə Bayramova, Xəyalə Hüseynli və Nəzrin Salamzadə təmsil ediblər.





Kişilərin 10 metr pnevmatik tüfənglə atıcılıq yarışının qalibi adını türkiyəli Ömər Akgün qazanıb. Qardaş ölkənin idmançısı İslamiadanın ilk qalibi kimi adını tarixə yazdırıb. Ö.Akgün 249.8 xal toplayaraq, gərgin şəraitdə keçən final mərhələsini qələbə ilə başa vurub. 245.5 xal toplayan banqladeşli Rabbi Həsən Munnay gümüş, 224.1 xalla özbəkistanlı Saidxan Sayfuddinov isə bürünc medal qazanıblar. Ölkəmizi bu yarışda təmsil edən Əli Məcidli təsnifat mərhələsini keçə bilməyib.

Qadınlar arasında 10 metr məsafədən pnevmatik tüfənglə atəş açmaq yarışının qızıl medalını isə İran idmançısı Nərgiz İmamquli qazanıb. O, 249.6 xalla IV İslam Həmrəyliyi Oyunlarının çempionluğunu bayram edib. Bu yarışda gümüş medala da İran təmsilçisi Elahe Əhmədi (246.1 xal) sahib çıxıb. Bürünc medala isə 223.9 xalla özbəkistanlı Səkinə Məmmədova yiyələnib.

Qadınların səngər stendi yarışlarının qalibi isə Türkiyə idmançısı Gürer Nihan olub. O, 41 xal toplayaraq çempion adını qazanıb. Həmkarından 4 xal az toplayan idmançımız Şəfəq Əmrahova 37 xalla gümüş medala sahib çıxıb. Qətər idmançısı Əl Xələf Xolud Hassan 29 xalla bürünc medalla kifayətlənib.

***Rəşad BAXŞƏLİYEV,***

**Azərbaycan.- 2017.- 14 may.- S. 1;3.**